# Maarifləndirmə tədbiri

FHN Şimal-qərb Regional Mərkəzi tərəfindən "Uşaq hüquqları aylığı çərçivəsində" 18 noyabr 2013-cü il tarixdə Qəbələ rayonu Kiçik Pirəli kənd tam orta məktəbində tədbir keçirmişdir. "Təbii fəlakət və texnogen qəzalar zamanı davranış qaydaları" mövzusunda təşkil olunmuş tədbirə məktəbin müəllim və şagird kollektivi, texniki işçiləri cəlb olunmuşdur. Tədbirdə ilk öncə məktəbin direktoru Elsevər Mustafayev çıxış edərək fövqəladə hallarda təhlükəsizlik anlayışını təbliğ etmək üçün təhsil işçilərinin də üzərinə böyük vəzifələrin düşdüyündən danışdı.

Sonra Mərkəzin əməkdaşları tərəfindən dinləyicilərə Fövqəladə Hallar Nazirliyi, Şimal-qərb Regional Mərkəzi haqqında, "Uşaq hüquqları konvensiyası" haqqında, baş verə biləcək hadisələrin qarşısının alınmasında, hadisələr zamanı davranış qaydalarına düzgün əməl edilməsində təbliğatın rolu haqqında, mülki müdafiə, yanğınlar, partlayışlar, zəhərlənmə təhlükəsindən mühafizə olunmaq, təhsil müəssisələrindəki emalatxanalarda, qazanxanalarda, elektrik enerjisi sahəsindəki təhlükəsizlik tədbirləri, "112" zəng xidməti və sair mövzular haqqında geniş məlumatlar verildi, "Dəm qazı və ondan qorunmağın yolları" və "Zəlzələ vaxtı, ondan əvvəl və sonra nə etməli?" mövzularında izahlı videoçarx nümayiş etdirildi, şagirdlərə fövqəladə hallarda davranış qaydalarına həsr olunmuş kitablar paylandı.



FHN Şimal-qərb Regional Mərkəzi tərəfindən bu səpgidə tədbirlər davam etdirilir.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

*Azərbaycan ədliyyəsi—95*

# Ədliyyə sistemi dövlətin dayağıdır

Noyabr ayının 22-də Azərbaycanda ədliyyə orqanlarının yaranmasının 95-ci ildönümü tamam olur. Azərbaycan Respublikası ədliyyə sisteminin xalqımızın müstəqillik uğrunda mübarizəsini və onun şanlı kecmişini özündə əks etdirən zəngin tarixi var. Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətində ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilmiş, 1918-ci ilin noyabr ayının 22-də onun əsasnaməsi qəbul edilmişdir.

Lakin 1920-ci ilin aprelində Azərbaycanın imperiya tərəfindən işğalından sonra «Ədliyyə Nazirliyinin fəaliyyətinə də son qoyulmuş onun funksiya və səlahiyyətləri digər hüquq-mühafizə orqanlarına verilmişdir. Ədliyyə Nazirliyinin yeni struktur kimi formalaşdırılması, onun gələcək inkişafı üçün əlverişli şəraitin yaradılması uzun fasilədən sonra, ötən əsrin 70-ci illərinə—ümummilli lider Heydər Əliyevin respublikaya birinci rəhbərliyi dövrünə təsadüf edir. Ötən əsrin sonlarında Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyev Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yeri tutması üçün lazımi tədbirlər görmüşdür.

Bu da təsadüfi deyildir ki, ədliyyə sisteminin inkişafını zəruri sayan ulu öndər Heydər Əliyev tarixi təməli nəzərə alaraq 22 noyabrı ədliyyə işçilərinin peşə bayramı günü elan edilməsi barədə 2000-ci ildə fərman imzalamışdır.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş ədliyyə və məhkəmə-hüquq islahatları onun layiqli davamçısı—Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir. Ədliyyə orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının təkmilləşdirilməsi məqsədi ilə hələ 2006-cı il 18 aprel tarixdə «Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə», 26 may 2006-cı ildə «Ədliyyə orqanlarında qulluq keçmə haqqında» qanun qəbul edilmiş, 17 avqust 2006-cı ildə «Ədliyyə orqanlarının inkişafı haqqında» fərman imzalanmışdır. Bu üç sənəd Azərbaycan ədliyyəsinin inkişafında keyfiyyətcə yeni mərhələ açmış, onun funksiya və səlahiyyətlərinin genişləndirilməsini təmin etmişdir.

**«Qəbələ».**

# Avtovağzalın xidmətindən sərnişinlər razılıq edirlər

Dağlar diyarı Qəbələ sürətlə inkişaf edən, gündən-günə abadlaşan rayonlar cərgəsində önəmli yer tutur. Hər dəfə bura gəlib-gedənlər neçə-neçə yeniliyin şahidi olur, inşası başa çatan obyektlərin istifadəyə verildiyini, təzələrin özülünün qoyulduğunu görürlər. Sözün həqiqi mənasında Qəbələ şəhəri daha da abadlaşmış və cazibədar olmuşdur. Çox yox, 1—2 il bundan əvvəl Ağdaş—Qəbələ magistral şosse yolunun sağ və sol tərəfindəki yöndəmsiz ticarət dükanları, pərakəndəlik, səliqəsizlik xoşagəlməz bir mənzərə yaradırdı. Yol darısqal olduğundan buradakı sıxlıq, yaranan qəza vəziyyətləri sərnişin və sürücüləri hövsələdən çıxarırdı. Payız-qış aylarında isə şosse həmişə natəmiz olurdu.

İndi bura tamam başqa bir görünüş almışdır. Şosse yolu genişləndirilmiş, piyadalar üçün səkilər çəkilmiş, səliqəli hasarlar hörülmüş, yola asfalt döşənmiş, kommersiya şəbəkələri müasir üslubda yenidən tikilmiş, yol boyu quraşdırılmış elektrik fanarları isə gecə vaxtlarında yolu nur selinə qərq edir, yol kənarı əkilmiş müxtəlif növ dekorativ ağaclar bu yola yeni çalarlar gətirir. Sevinirəm ki, doğma Qəbələmiz bütün sahələrdə sürətli inkişaf yolundadır və inanıram ki, çox çəkməyəcək Qəbələ ən yüksək həyat səviyyəsi olan şəhərlərlə bir sırada duracaqdır. Ümumiyyətlə, son 3—4 il ərzində rayon mərkəzində bir-birindən yaraşıqlı bir neçə obyekt tikilib istifadəyə verilmişdir. Onların hər biri şəhərin görkəminə yeni yaraşıq gətirir.

Şəhərin cənub hissəsində tikilən xidmət obyektlərindən ən əhəmiyyətlisi yeni avtovağzal binasıdır. 2010-cu il fevralın 27-də cənab Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan yeni avtovağzal əhalinin ən çox müraciət etdiyi obyektlərdən biridir. İkimərtəbəli avtovağzal binası 1,5 hektar ərazidə yerləşir. Zəruri xidmət sahələri ilə təmin edilmiş binanın birinci mərtəbəsində kassalar, gözləmə və tibb, ana və uşaq, namaz otaqları, çayxana, kafe və digər bölmələr sərnişinlərə xidmət edir. Avtovağzal binasının ikinci mərtəbəsində isə inzibati otaqlar yerləşir. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır. Burada qış aylarında istilik sistemindən, elektrik enerjisindən səmərəli və fasiləsiz istifadə olunur. Su təchizatı yaxşıdır, avtovağzalın özünün artezianı və qazanxanası var.

Yeni avtovağzal rayonda nəqliyyat sahəsinin inkişafında və əhalinin müxtəlif istiqamətli marşrutlardan səmərəli istifadəsində xüsusi əhəmiyyət kəsb edir. Rayonun qəsəbə və kəndlərinin sakinləri ilə yanaşı ölkədaxili marşrutlardan sərnişinlər rahat, maneəsiz istifadə edirlər. Hazırda Qəbələ—Bakı, Qəbələ—Sumqayıt, Qəbələ—Gəncə, Qəbələ—Mingəçevir, Qəbələ—Şəki və Qəbələ—Zaqatala marşrutları sərnişinlərə gündəlik xidmət göstərir.

Avtovağzalın direktoru Azad Abduləzizov bildirdi ki, bundan əlavə Qəbələ—Lənkəran, Qəbələ—Rusiya və Qəbələ—Türkiyə və MDB-nin digər dövlətlərinə də avtobus reysləri açılacaqdır. Direktor onu da dedi ki, avtovağzalın xidmətindən sutka ərzində təxminən 500—600 sərnişin istifadə edir.

Öyrəndik ki, avtovağzalda 14 nəfər işçi çalışır. Kollektiv səmimi və işgüzar insanlardan ibarətdir. Onların əməyi və qayğısı sayəsində avtovağzalın həm daxilində, həm də həyətində yaradılan səliqə-sahmana söz olmaz. Avtovağzalın direktoru Azad Abduləzizov işçilər arasında fərq qoymadan hamıya eyni münasibət göstərir, eyni qayğı göstərir. Direktor rayonun ictimai-siyasi işlərində də fəal iştirak edir. Onu da qeyd etmək lazımdır ki, bu üç il ərzində sərnişinlər tərəfindən avtovağzalın xidmətindən heç bir narazılıq qeydə alınmamışdır.

**Aslan CƏLİLOV.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**24 noyabr:** Böyük Azərbaycan şairi Məhəmməd Füzuli (1494—1556) anadan olmuşdur. Azərbaycan, fars, ərəb dillərində şeirlər, qəzəllər yazmışdır. Dövrünün müxtəlif siyasi-ictimai və əxlaqi məsələlərinə, sosial ədalətsizliyə, zülmə, xürafata münasibətini bildirmişdir. Azərbaycan dilində lirik şeirin gözəl nümunələrini yaratmışdır. "Leyli və Məcnun" poeması yaradıcılığının zirvəsi sayılır. Alleqorik əsərləri də var. Azərbaycan ədəbiyyatı tarixində ana dilində bədii nəsrin gözəl nümunələrini yaratmışdır.

Görkəmli rus sərkərdəsi, generalissimus Aleksandr Suvorov (1730—1800) anadan olub. İlk hərbi rütbəsi poruçik olmuş, müxtəlif hərbi yürüşlərdə iştirak etmiş, generalissimus rütbəsinədək yüksəlmişdir. Lakin imperator I Pavelin tətbiq etdiyi Prussiya kötək qaydalarının əleyhinə çıxdığına görə istefaya buraxılmış və Novqorod quberniyasının bir kəndinə sürgün olunmuşdur.

**25 noyabr:** XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, dramaturq, publisist, ictimai xadim İmran Qasımov (1918—1981) anadan olmuşdur. Ədəbi fəaliyyətə 1938-ci ildə kinossenarist və dramaturq kimi başlamış, roman və povestlər, kinossenariləri yazmışdır. "Literaturnı Azerbaydjan" jurnalının baş redaktoru, Azərbaycan Yazıçılar İttifaqının birinci katibi olmuş, 8—9-cu çağırışlarda Azərbaycan Ali Sovetinə, 9-cu çağırışda SSRİ Ali Sovetinə deputat seçilmişdir.

İspan milli dramaturgiyasının banisi Lope de Veqa (1562—1635) anadan olmuşdur. 2000-ə qədər müxtəlif janrlı əsərlər yazıb. 500-dən çox pyesi nəşr olunub.

Dilçi alim, əməkdar elm xadimi Əliheydər Orucov 1905-ci ildə anadan olmuşdur. Lüğətlər yaradılmasına böyük əmək sərf etmiş, pedaqoji fəaliyyət göstərmişdir.

**28 noyabr:** Azərbaycanın xalq yazıçısı Əli Vəliyev (1901—1983) anadan olmuşdur. "Kommunist" qəzetinin, "Azərbaycan" jurnalının redaktoru, Yazıçılar İttifaqının məsul katibi olmuşdur. Bir sıra roman və povestləri, oçerkləri nəşr edilmişdir.